# Dünənimizdən sabahımıza körpü salmış tədqiqatçı



Biz bəzən idealları, əlçatmazları uzaqlarda, çox uzaqlarda axtarırıq. Amma ideal, qeyri-adi saydığımız adamlar, əslində çevrəmizdə, lap yaxınlığımızdadır, bizimlədir. Hər gün görüşmək, söhbət etmək imkanımız olduğundan onlar bizə adi, sıravi görünürlər. Mizan-tərəzini ortaya qoyub götür-qoy edəndə görürük ki, bu təvazökar insanlar bənzərsiz ağıl, istedad sahibidirlər, həyatlarını həsr etdikləri sahələrin, peşələrin tayı-bərabəri olmayan biliciləridir. Sadəcə olaraq, bunları görmək, dərk etmək, qiymətləndirməyi bacarmaq gərəkdir. Bax, mən sadədən sadə, çox dəyərli, vaxtilə çoxlarımızın tanıdığı belə bir insanın ömür kitabının ancaq bir səhifəsini vərəqləmək istərdim.

Bu gün Azərbaycanda sırf elmi axtarışla məşğul olmuş alimlərdən akademik Budaq Əbdüləli oğlu Budaqov qədər həm də məktəb, məktəb coğrafiyası, təhsillə yaxından bağlılığı ilə seçilmiş ikinci bir tədqiqatçının, coğrafiyaçı alimin adını yada salmaqda çətinlik çəkirəm.

Budaq Budaqov hələ ibtidai məktəbdə oxuyarkən peşə seçimini etmişdi. Arzusu müəllim olmaq idi. Elə bu arzuyla da o, İrəvan Pedaqoji Məktəbinə daxil oldu. O vaxtlar bu məktəbə qəbul olmaq istəyənlərin sayı qədərindən çox idi. Odur ki, burada ancaq yaxşıların yaxşısı oxuya bilərdi. Məktəb mahalda öz ənənələri, müəllim kollektivi və yetişdirmələri ilə sayılıb-seçilən təhsil ocaqlarından biri idi. Xüsusilə müəllim kollektivi adnan söylənilirdi. Aralarında hətta Qori seminariyasını bitirənlər də vardı (Mehdi Kazımov). Xatirələrin ilğımına bürünmüş o əziz adları, soyadları hərdən yad etdikcə, artıq özü müəllimlərinin yaşına çatmış və dünyasını dəyişmiş Budaq müəllim vurğunluğunu, heyranlığını, nisgilini heç vaxt gizlədə bilməzdi. Bəzən o günlər üçün qəlbinə kövrək kədər çökərdi.

Məmməd Həsənov, Cabbar müəllim, Heydər müəllim, Ələşrəf Bayramov, Həbib Həsənov, Surə müəllimə, Rəziyə müəllimə, Şölə müəllimə... Ona daha kimlər, kimlər dərs deməmişdi. Necə də bilikliydilər, səliqə-sahmanlı, ölçülü-biçiliydilər. Təkcə dərs dedikləri tələbələr üçün deyil, böyüklər üçün də örnək idilər çoxdan tarixə dönmüş, müqəddəsləşmiş o qayğıkeş insanlar... Məhz bu məktəbdə oxumağını Budaq müəllim həmişə bəxtinə düşmüş uğurlu qismət payı sanmışdı.

Budaq Budaqov 1947-ci ildə İrəvan Pedaqoji Məktəbini bitirib Bakıya üz tutdu. Ailənin maddi sıxıntılarına baxmayaraq, o, ali məktəbdə oxumaq istəyi qarşısında duruş gətirə bilmədi. Sənədlərini Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə verdi, qəbul olundu, lakin tale onu Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə gətirdi. Bu qismət payından o həmişə sevinc və minnətdarlıq hissi ilə danışardı. Uşaqlığında dərələrin dərinliyinə, dağların ucalığına, qayaların əzəmətinə heyran kəsilər, ildırımın, şimşək qamçısının, göy qurşağının möcüzəsinin sirrindən çaşıb qalar, onların yaranma səbəbləri haqda düşünərdi... Kim bilir, bəlkə də coğrafiya fakültəsinə düşməsi də bir alın yazısı, Tanrının Budaq müəllimin peşə seçiminə etdiyi düzəliş idi.

Gənc Budaq öz istedadı, təşkilatçılıq qabiliyyəti ilə seçilirdi. O, əvvəlcə coğrafiya fakültəsinin, daha sonra institut komsomol komitəsinin katibi kimi məsul vəzifəyə irəli çəkildi. Stalin təqaüdü aldı.

İstər texnikumda, istərsə də institutda oxuduğu illərdə müəllimləri sarıdan Budaq Budaqovun bəxti həmişə gətirmişdi. Ona pedaqogikadan Azərbaycanda bu fənnin bir elm kimi əsasını qoyan məşhur alimlər—Əhməd Seyidov, Mərdan Muradxanlı, İsfəndiyar Vəlixanlı, Qafarzadə dərs deyib, coğrafiya elminin sirlərini isə ilk əvvəl Osman Osmanovdan, İbrahim İbrahimbəylidən, Məmməd Axundovdan öyrənmişdi. Belə azman pedaqoqların ona dərs deməsi müəllim olmaq arzusunu bir az da qüvvətləndirmişdi. Lakin bir təsadüf Budaq Budaqovun pedaqoq olmaq istəyinə düzəliş etmişdi. Coğrafiya fakültəsinin dekanı, ixtisasca geoloq Manaf Zahiri tələbəsinin elmə sonsuz həvəsini görüb onu birinci kursu bitirdiyi ildən çöl-tədqiqat işinə - ekspedisiyaya cəlb etmişdi. Elə bu da gələcək alimi birdəfəlik elmə bağlamışdı.

Budaq Budaqov ali təhsilini başa vurub Moskvada aspiranturaya qəbul olundu. Namizədlik, daha sonra doktorluq elmi dərəcələri aldı. Azərbaycan EA-nın müxbir üzvü, akademik seçildi. Əmək fəaliyyətinə 64 il bundan əvvəl EA-nın Coğrafiya İnstitutunda kiçik elmi işçi kimi başlayan alim uzun illər bu adlı-sanlı elm ocağına uğurla rəhbərlik etmişdir.

Respublikamızda coğrafiya fənninin, coğrafiya elminin sevilməsində, təbliğində, az öyrənilmiş problemlərinin qaranlıq qatlarının işıqlandırılmasında Budaq müəllimin xüsusi xidmətləri olmuşdur. Bu məqsədlə o, daha çox dövri mətbuatdan, televiziya və radio verilişlərindən istifadəyə üstünlük vermişdir. "Azərbaycan pioneri", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Elm və həyat", "Azərbaycan təbiəti" jurnallarında dərc olunan "Qərq olmuş dağlar", "İkimərtəbəli çaylar", "Mavi kontinent", "Canlı adalar", "Qar uçqunları", "Coğrafi örtük nədir?", "Yerin ürəyinə doğru", "Üzən su anbarları", "Ən yüksək zirvələr", "Toxunulmaz müqəddəslər", "Antarktida və onun taleyi", "Həyat və metal" və s. kimi yüzlərcə silsilə məqalələri hər dəfə hadisəyə çevrilmiş, geniş oxucu marağına səbəb olmuşdur. Budaq müəllimin dövri mətbuatda işıq üzü görmüş məqalələri "Coğrafiya elminin uğurları" adlı topluda (üç cilddə) öz əksini tapmışdır.

Akademik Budaq Budaqovun 1965-1967-ci illərdə televiziya vasitəsilə apardığı "Səyahət" verilişi, çoxsaylı çıxışları yaşlı tamaşaçılar tərəfindən bu gün də rəğbət və minnətdarlıqla yad edilir.

O, dalbadal bir neçə il Maarif Nazirliyi nəzdində fəaliyyət göstərən Tədris Metodiki Şuraya rəhbərlik etmişdir. Orta məktəblərdə coğrafiya fənninin tədrisinin keyfiyyətinin, müəllimlərin peşə səviyyəsinin yüksəlməsinə qayğı göstərmiş, bu məqsədlə məktəblərə üz tutmuş, şagirdlərlə görüşmüş, müəllimlər qarşısında məruzələrlə çıxış etmiş, coğrafi ədəbiyyatda kifayət qədər işıqlandırılmayan problem xarakterli mövzularda məqalələr yazmışdır. Tədris xəritələrinin Azərbaycan dilində nəşrinin təşəbbüskarlarından olmuşdur. Alimin "Tarix, ictimaiyyət, coğrafiya" tədris məcmuəsi ilə əməkdaşlığını xüsusi qeyd etmək gərəkdir. O, 10 ildən artıq bu məcmuənin redaksiya heyətinin fəal üzvü olmuşdur.

Akademik Budaq Budaqov müəllimlərin Bakı şəhərində və ayrı-ayrı rayonlarda keçirilən avqust müşavirələrində Azərbaycan KP MK-nın xətti ilə iştirak etmişdir.

Coğrafiya fənninin tədrisinin keyfiyyəti, coğrafi biliklərin şagirdlər tərəfindən dərk edilməsi və geniş mənimsənilməsi dərsliklərdən çox asılıdır. Akademik Budaq Budaqov 1983-cü ildən bu yana qədər təkrar-təkrar nəşr olunan, 8-ci siniflər üçün nəzərdə tutulan "Azərbaycan Respublikasının fiziki coğrafiyası" dərsliyinin müəllifi olmuşdur. O həm də ali məktəb tələbələri üçün yazılmış orijinal "Geomorfologiya" dərsliyinin müəlliflərindən biridir.

Budaq Budaqov orta məktəblərdə dərs deyən coğrafiya müəllimlərinin, sözün həqiqi mənasında, yaxın dostu və məsləhətçisi kimi ad çıxarmışdır. Müəllimlərlə tez-tez ünsiyyətdə olar, onları iş yerində qəbul edər, çox zamansa özü məktəblərə gedərdi. Məsələn, Bakının Nəsimi rayonundakı 54 saylı məktəbdə 30 ildən artıqdır ki, "Qlobus" adlı coğrafiya klubu fəaliyyət göstərir. Budaq müəllim klubun tədbirlərində ardıcıl olaraq iştirak etməklə yanaşı, həm də rəhbərlik etdiyi Coğrafiya İnstitutunun əməkdaşlarını da bu tədbirlərə cəlb edərdi. Elmə meyil göstərən coğrafiya müəllimlərini elmi-tədqiqat axtarışlarına həvəsləndirər, istiqamət verər, dissertasiya işi yazmaqda öz yardımını əsirgəməz, çox vaxtsa elə özü onların elmi məsləhətçisi olardı.

Akademik Budaq Budaqov uzun illər Bakı Dövlət Universitetinin cografiya fakültəsində xüsusi kurs aparmışdır. Onun oxuduğu mühazirələr elmi dəyəri ilə yanaşı, həm də pedaqoji ustalıq baxımından seçilirdi. Elmlə praktikanın səmərəli vəhdətinin dərsin mənimsənilməsində, biliklərin əxz olunmasında necə güclü bir pedaqoji silah olduğunu Budaq müəllim çox gözəl bilir və öz təcrübəsində bundan bacarıqla istifadə edirdi.

Akademik Budaq Budaqovun ən böyük pedaqoji fəaliyyəti özünü elmlər namizədi və doktorlarının yetişdirilməsində də qabarıq göstərirdi. Azərbaycanda coğrafiya elmi ilə bağlı elə bir elmi-tədqiqat institutu, elə bir təhsil ocağı yoxdur ki, orada bu sadə, səmimi, zəhmətkeş alimin yetirmələri işləməsin.

Budaq Budaqov 1970-ci ildən başlayaraq keçmiş SSRİ Cografiya Cəmiyyətinin qurultayında Elmi Şuranın üzvü seçilməklə İttifaq miqyasında cografiya elminin inkişafında yaxından iştirak etmişdir.

Akademik Budaq Budaqovun son yarıməsrlik elmi fəaliyyəti dövründə geomorfologiyaya, landşaftşünaslığa, toponomikaya, ekologiyaya, ətraf mühitin mühafizəsinə, poeziyaya, məktəb coğrafiyasına, coğrafiya tarixinə və digər elmi problemlərə həsr edilmiş əsərləri müəllim heyətinin dünyagörüşünün genişlənməsinə, bilik mənbəyinin zənginləşməsinə və bu yolla coğrafiya dərslərinin keyfiyyətinin yüksəlməsinə yardımçı olmuşdur.

Akademik Budaq Budaqov həm də vətənpərvərlik fənninin tədrisi ilə məşğul olmuşdur. Bu bir həqiqətdir ki, hər bir millət bugününü qurmaq, gələcəyini müəyyənləşdirmək üçün mütləq keçmişinə istinad etməlidir. Bu isə həm də toponomika elmi ilə bağlıdır. Azərbaycanda toponomikanın yetkin bir elm kimi formalaşması və qurum halında təşəkkülündə Budaq müəllimin xidmətləri ölçüyəgəlməzdir. Onun bu sahədə qələmə aldığı məqalələr, monoqrafiyalar, lüğətlər çox mötəbər mənbələr sayılır.

Avropa və Asiya qitələrində yayılmış türkdilli xalqlara mənsub yer adlarının tədqiqi və şərhinə həsr edilmiş "Türk uluslarının yer yaddaşı" monoqrafiyası bu səpkidə yazılmış ilk və elmi baxımdan çox sanballı, uğurlu bir əsərdir. Daha geniş oxucu auditoriyası qazandığı nəzərə alınaraq əsər ingilis və rus dillərində də işıq üzü görüb.

Akademik Budaq Budaqovun və türkdilli xalqlara, türk yurdlarına məhəbbəti elmi ictimaiyyətə yaxşı bəlli olan mərhum alim Qiyasəddin Qeybullayevin birgə qələmə aldıqları irihəcmli "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti", daha sonra "Gürcüstanın türkmənşəli toponimlərinin izahlı lüğəti" əsərləri türksevərlərin stolüstü kitablarına çevrilib.

Keçmişini bilməyən millət gələcəyini qura bilməz. Budaq müəllimin adını çəkdiyimiz və çəkmədiyimiz bir sıra əsərləri müəllimlərə, şagirdlərə, tələbələrə, elə hər birimizə ulu keçmişimizi, böyüklüyümüzü dərk etməyə imkan verir, bizi tarixi kökümüzə daha möhkəm tellərlə bağlayır.

Budaq Budaqov müəllimi olmuş görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevə həsr etdiyi "Elin oğlu" məqaləsində müəllim barədə yazır: "Müəllim cəmiyyətin mizan-tərəzisi, insan mənəviyyatının ölçü vahididir. İnsanlar bütün zamanlarda müəllim sözünü ağır batmanla, böyük hörmət və izzətlə dəyərləndirmişlər. O, həmişə cəmiyyətin dadı-tamı, mayası, mayakı olmuşdur. Uşaqlar ayaqları yer tutub addım atandan, dili söz tutub danışan andan müəllim sözünün istisinə isinmiş, müqəddəsliyinə, ucalığına tapınmışdır".

Bəli, Budaq Əbdüləli oğlu Budaqov zəhmətə qatlaşa-qatlaşa, acılığında şirinlik axtara-axtara ziyalı ömrü, alim ömrü, həm də qibtə ediləcək, örnək ola biləcək bir müəllim ömrü yaşamışdır. Öz səxavətindən, istisindən, halallığından başqalarına pay verə-verə yaşamış, yaratmış, dünyamızı yaxşılığa doğru bir az da yaxınlaşdırmışdır. Babalarımıza, ulularımıza, müəllimlərinə ehtiram göstərə-göstərə özü canlı tarixə dönmüş, dünənimizdən bugünümüzə, sabahımıza körpü salmışdır. Dədəm Qorqud timsallı söhbətləri, nəsihətləri, yazılarıyla özü də qəlblərə köçmüş, yaddaşlara naxışlanmışdır.

**Zahid ƏHMƏDOV.**